VƏTƏN UĞRUNDA GEDƏN DÖYÜŞLƏRDƏ MƏQSƏDİMİZ ÖLMƏK DEYİL, ÖLDÜRMƏK İDİ...

Qəzetimizin ötən saylarında 1992-1994-cü illərdə respublikamızın ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına döyüşən və hazırda qoşunların müxtəlif hərbi hissələrində xidmət edən hərbi qulluqçularımız haqqında materiallar hazırlamışdıq. Bu dəfə də ənənəmizə sadiq qalaraq, növbəti hərbi qulluqçumuzun döyüş yolu barədə oxucularımıza məlumat vermək istəyirik.

Hazırda 25031 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı vəzifəsində xidmət edən kapitan Samir Quliyev də Qarabağ hadisələri zamanı döyüşə yollanan ilk Vətən oğullarından idi.

O, 1972-ci il avqustun 8-də Bakı şəhərində dünyaya gəlib. 1989-cu ildə orta məktəbi bitirdikdən sonra, 1990-1992-ci illərdə sovet ordusu tərkibində Qazaxstanda müddətli həqiqi hərbi xidmət keçib.

Hələ hərbi xidmətdə olarkən yurdumuza göz dikən mənfur düşmənə qarşı döyüşəcəyini qətiləşdirən bu gənc oğlan erməni işğalçılarına layiqli cavab verəcəyi günü səbirsizliklə gözləyirdi. Xidmətini başa vuran Samir elə bu arzu, istəklə də Vətənə dönür və könüllü olaraq Müdafiə Nazirliyinin Füzuli rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayır.

O, Füzulinin Xələvüşə kəndi ərazisində gedən qızğın döyüşlər zamanı ağır yaralanır. Düşmən Samiri yaralasa da, onun mübarizliyini, döyüşkən ruhunu sarsıda bilmir. Bir müddət müalicə alan Samir vəziyyəti stabilləşəndən sonra yenidən, lakin bu dəfə Daxili Qoşunların Hacıqabulda yerləşən "N" saylı hərbi hissəsinin tərkibində cəbhə bölgəsinə yollanır. O günləri xatırlayarkən qəhrəmanımız həm qəhrənlar, həm də haqlı olaraq qürurlanır. Mərdliyi, cəsarəti, əzmkarlığı ilə yoldaşlarından fərqlənən hərbi qulluqçumuz bütün varlığı ilə torpağına bağlı olduğunu hər hərəkətində büruzə verir.

1993-cü ildə Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətində gedən qızğın döyüşlərin birində erməni işğalçılarının həملələrinə mərdliklə sinə gərən şəxsi heyətin bir qismi hücum zamanı mühasirəyə düşür. Bu zaman heç kimin cəsarət edə bilmədiyi addımı atan döyüşçümüz mühasirəni yararaq yoldaşlarının azad olunması üçün böyük şücaət göstərir. Məhz bu döyüşlərdən sonra ona "gizir" hərbi rütbəsi verilir və taqım komandiri vəzifəsinə təyin olunur. Üreyində Vətən sevgisi günü-gündən alovlanan gizir S.Quliyev üçün həmin dönəmlərdə yurda, torpağa bağlılıq hissləri bütün digər hisslərdən üstün idi. Özünün dediyi kimi, "Müharibənin ağrı-acısını, şiddətini ancaq vuruşanlar bilir. Belə bir məsəl var ki, kənardan döyüş asan gəlir. Həqiqətən də hər gün bir parça çörəyini bölüşdüyün, eyni səngərdə çiyin-çiyinə döyüşdüyün yoldaşlarının gözlərinin önündə yaralandığını, həlak olduğunu görmək dəhşətdir.

Bu hissləri sözlə anlatmaq mümkün deyil...

Yaxşı yadımdadır, 1993-cü ildə müharibənin qızğın vaxtı idi. Komandir əmr etdi ki, sağ cinah boşdur, əlavə qüvvə kimi ora getməlisiz. Çətan kimi düşmən bizim mövqelərimizi minamyotlardan atəşə tutmağa başladı, manqa komandiri və iki əsgərimiz şəhid oldu. Bax, o gün heç xatirimdən çıxmır, çünki ən çox istədiyim silahdaşım, dostum əsgər Qalib Cabbarov şəhidlik zirvəsinə yüksələrək, əbədiyyətə qovuşdu. Olduqca cəsur, qayğıkeş Vətən oğlu idi, Qalib...

Mənə elə gəlir ki, torpaqlarımızın bütövlüyü uğrunda döyüşsəm də, "Vətən üçün nə isə etmişəm"- deməyə ixtiyarım yoxdur".

Həqiqətən də yurduna, torpağına bu qədər bağlı olan hərbi qulluqçumuzu dinlədikcə onun necə təvazökar biri olduğunu görür və bir daha əmin olursan ki, minlərlə igid oğullarımızın qanı ilə yuyulan bu torpaqdan düşmənə pay olmaz.

Vətənpərvərlik aşılanmır, ana südü ilə insanın canına, qanına hopur. Bu hiss ailədə formalaşır, inkişaf edir, Necə ki, kapitan S.Quliyevin ailəsində kök salmışdı yurd sevgisi. Quliyevlər ailəsinin hər iki oğlunu müharibəyə yola salması bunun bariz nümunəsidir.

1994-cü ildə Ağdərə rayonu istiqamətində gedən ağır döyüşlər zamanı qəhrəmancasına həlak olan Quliyev Cavid Cəlal oğlu kapitan S.Quliyevin böyük qardaşı idi. **(Ölümündən sonra "Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilib – P.S.)** Qardaşının və minlərlə şəhid oğullarımızın qanının yerdə qalmayaca - ğını, qisas gününün yaxında olduğunu düşünən qəhrəmanımız hər zaman torpaqlarımızın bütövlüyü uğrunda son damla qanına kimi vuruşmağa hazır olduğunu söyləyi. Bildirdi ki, yalnız yağı düşmən üzərində gələ-ləndə çıldığımız gün bütün şəhidləri-mizin ruhu rahatlıq tapacaq.

leytenant N.Ağayeva

ƏZMKARLIQ VƏ DÖZÜMLÜLÜK ƏSAS ŞƏRTLƏRDƏNDİR...



Əsgər Pünhan Müslümlü 25031 saylı hərbi hissənin bacarıqlı, intizamlı hərbi qulluqçularından biridir. O, 1997-ci il iyunun 9-da Tərtər rayonunun Qapanlı kəndində dünyaya göz açıb. Orta məktəbi 2015-ci ildə doğma kəndində bitirən Pünhan elə həmin ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb.

Hazırda 25031 saylı hərbi hissənin təminat taqımında xidmət edir.

Komandir tərəfindən verilən bütün tapşırıqlara qeyd-şərtsiz əməl edən əsgər P.Müslümlü hər zaman xidmətdə əzmkarlıq və dözümlülük nümayiş etdirir. Hərbi qulluqçu keçirilən məşğələlərə böyük həvəslə qatılır, daim fəallıq göstərərək bacarığı ilə əsgər yoldaşlarından fərq - lənir. Həmçinin o, tərbiyəsi, nəcib xüsusiyyətlərinə görə həm hissə komandanlığının, həm də yoldaşlarının dərin rəğbətini qazanıb. Hər bir gəncin həyatında hərbi xidmətin xüsusi əhəmiyyətinin olduğunu düşünən əsgər P.Müslümlü daima öz üzərində çalışır, eyni zamanda böl - mədə yoldaşlarına xidmətə uyğunlaşmaq, çətinlikləri aradan qaldırmaq üçün köməyini əsirgəmir.

Daxili Qoşunlarda xidmət etdiyi üçün qürur duyduğunu deyən əsgərimiz burada onlara yaradılmış şəraitdən də razılığını ifadə edərək bildirdi ki, bu diqqət və qayğıya fədakar, nümunəvi xidmətləri ilə cavab verirfər.

leytenant N.Ağayeva

NÜMUNƏVİ XİDMƏT

Leytenant Təhmasib Mustafayev Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin nümunəvi hərbi qulluqçularındandır. O, 2010-cu ilin aprel ayından Daxili Qoşunların sıralarında xidmət edir. Xidmətinə 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində başlayıb. 2011-2012-ci illərdə Türkiyə Cümhuriyyətinin Jandarm Komando kursunu müvəffəqiyyətlə bitirən hərbi qulluqçumuz 2012-2014-cü illərdə Orta İxtisas Hərbi Məktəbində təhsil alıb.

2014-cü ildən 12318 saylı hərbi hissənin patrul taborunda, 2015-ci ilin may ayından isə komendant taqımının komandiri vəzifəsində xidmət edir. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Məsuliyyəti və bacarığı ilə hərbçi yoldaşlarına nümunə olan leytenant T.Mustafayev xidmət etdiyi müddət ərzində dəfələrlə Daxili Qoşunların Komandanlığı, eləcə də hissə komandiri tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

Taqım komandiri kimi daxili qayda-qanunun, hərbi intizamın qorunub saxlanılmasına ciddi nəzarət edir. Tabeçiliyində olan şəxsi heyətə fərdi yanaşır, xüsusilə xidmətə cəlb olunan hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olmasını diqqət mərkəzində saxlayır.

Onun bilavasitə rəhbərliyi ilə keçirilən atəş məşğələlərində silahla davranarkən təhlükəsizlik qaydalarına ciddi riayət olunması, komandalar üzrə verilmiş tapşırıqların təmkinlə, dəqiqliklə yerinə yetirilməsinin üsul və metodları izah edilir və öyrədilir.

Baş gizir Anar İsayev isə 1997-ci ilin yanvar ayından hərbi hissədə xidmət edir. Bu illər ərzində müxtəlif vəzifələrdə çalışan hərbi qulluqçumuz hazırda hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin başçavuşu vəzifəsində xidmət edir. Xidməti vəzifə borclarının öhdəsindən layiqincə gələn baş gizir A.İsayev bölüyün əməkdarının, sitah-sursatın qorunub saxlanılmasına, onların saz - lığına, şəxsi heyatin müvafiq normalarla vaxtında təmin olunmasına cavabdehdir. O, eyni zamanda gey-im formalarının şəxsi heyətə paylanmasını həyata keçirir, bölüklərdə səliqə-sahmanın qorunub saxlanılmasına nəzarət edir. Nümunəvi xidmətilə seçilən hərbi qulluqçumuz şəxsi nizam-intizamına görə dəfələrlə mükafatlandırılıb.



Baş gizir A.İsayev həmçinin, idmanın müxtəlif növləri üzrə daxili işlər orqanları arasında keçirilən yarışlarda Daxili Qoşunları uğurla təmsil edərək, yüksək nəticələr əldə edib.

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları **əsgər Cəbrayıl Ataşov** və **əsgər Nurlan Əhmədov** da 12318 saylı hərbi hissənin komandanlığı tərəfindən müsbət xarakterizə olunanlar sırasındadır.

Əsgər C.Ataşov 1991-ci il sentyabrın 11-də Bakı Şəhərində anadan olub. Ali təhsillidir. 2009-2014-cü illərdə Odlar Yurdu Universitetinin "İqtisadiyyat" fakültəsində təhsil alıb. 2016-cı ilin yanvar ayından hərbi xidmətdədir. Hərbi hissənin təminat bölüyündə yanacaqdolduran vəzifəsində xidmət edir. Vəzifə borcunu layiqincə yerinə yetirərək ona göstərilən etimadı doğrultmağa çalışır.



Əsgər N.Əhmədov 1990-cı il fevralın 27-də Mingaçevir şəhərində doğulub. Orta təhsilini ta - mamladıqdan sonra 2007-2012-ci illərdə Rusiya Federasiyasının Kemirova Dövlət Universitetinin "Humanitar" fakültəsində təhsil alıb. 2015-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılan Nurlan hazırda hərbi hissənin təminat bölüyündə radiotelefoncudur. O, rabitə xətlərinin sazlığına, vaxtlı-vaxtında rabitə əlaqəsinin qurulmasına, məlumatların qəbul edilib, aidiyyəti üzrə ötürülməsinə cavabdehlik daşıyır.



Eyni zamanda, idmanın boks növü ilə məşğul olan hərbi qulluqçumuz Rusiyada keçirilən beynəlxalq turnirlərdə uğurla iştirak edib və bir neçə dəfə kürsünün ən yüksək pilləsində qərarlaşıb.

leytenant X.Tağıyeva

Allah rəhmət eləsin

Daxili Qoşunların Baş İdarəsinin şəxsi heyəti polkovnik-leytenant Kamran Məhərrəmova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

HƏRBİ XƏBƏRLƏR

YENİ "T-100" TƏLİM-DÖYÜŞ TƏYYARƏSİ NÜMAYİŞ ETDİRİLİB

ABŞ-ın "Raytheon" şirkəti yeni təlim-döyüş təyyarəsinin təqdimatını keçirib.

Məlumata görə, "T-100" təlim-döyüş təyyarəsi ABŞ Hərbi Hava Qüvvələrinin istismarına veriləcək və "T-38"-i əvəz edəcək. Şirkət eyni zamanda, təlim təyyarəsi üçün trenajoru da təqdim edib.

Təqdimatda bildirilib ki, təyyarə İtaliyada yığılıb. Döyüş təyyarəsi özünün müasir imkanları, çoxfunksional displey sensoru və pilot kabinəsi ilə digərlərindən fərqlənir.

Təyyarə saatda 1500 km sürətlə uça bilir.

"QİYAMƏT GÜNÜ"nün TEST UÇUŞU GERÇƏKLƏŞDİRİLƏCƏK

Rusiya "İL-96-400" Havadan Xəbərdarlıq və Nəzarət (AWACS) təyyarəsinin yaradılması üzərində işləri tamamlamaq üzrədir, Məlumata əsasən, "AWACS" təyyarəsi "Voronej" zavodunda hazırlanır. "Qiyamət Günü" adı verilən "İL-96-400" hərbi təyyarəsinin ilk test uçuşları 2016-cı ilin sonlarında həyata keçiriləcək.

Rusiya Müdafiə Nazirliyinin balansında havadan xəbərdarlıq və nəzarət təyyarəsi kimi istifadə ediləcək "İL-96-400" yüksək texnoloji xüsusiyyətləri və aktiv qoruma qalxanı ilə diqqət çəkir. Çoxkanallı rabitə sistemləri ilə təchiz edilən hərbi təyyarə havada yanacaqdoldurma imkanı hesabına uzun müddət uçuş edə biləcək.

Qeyd edək ki, Rusiyanın havadan xəbərdarlıq və nəzarət məqsədli istifadə etdiyi "İL-86" və "İL/86VKP" tipli təyyarələrini də modernləşdirəcəyi gözlənilir.

YENİ PİLOTSUZ UÇAN APARAT SİSTEMİ – "DRONE DOME"

İsrailin "Rafael" şirkəti Farnboro aviasiya şousunda mini PUA-ları zərərsizləşdirmək üçün hazırladığı "Drone Dome" kompleksini nümayişə çıxarıb.

Məlumata görə, "Drone Dome" kompleksi ətrafı 360 dərəcə dairəvi detekslya etmə qabiliyyətinə malik "Rada" şirkətinin istehsalı olan "RPS-42" taktik hava müşahidə radarı, elektro-optik müşahidə sensorları və PUA-nın peyk naviqasiyasını, radiosiqnallarını qarışdıran Jammer sistemindən ibarətdir.

Testlər zamanı "Drone Dome" kompleksi mikro və nano PUA-lara qarşı effektiv tətbiq edilib. Belə ki, sınaqlar zamanı "Proxy Dynamics" şirkəti tərəfindən istehsal edilmiş ən kiçik PUA olan "Black Hornet" zərər - sizləşdirilib.



Sistem bütün hava şəraitində 24 saat fəaliyyət göstərir. Radar təhlükəni aşkarladıqdan sonra PUA elektro-optik və infraqırmızı sensorlar tərəfindən müəyyən edilir. Bundan sonra jammer sistemi işə düşərək PUA-nın radiodalğaları və peyk naviqasiyası qarışdırılır və PUA-nın fəaliyyətinə müdaxilə olunaraq endirilməsi təmin olunur.

Qeyd: azeridefence.com hərbi xəbər agentliyinin materiallarından istifadə olunub.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhədətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 15 (481)
30 iyul 2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

"BU GÜN AZƏRBAYCAN ARTIQ DÜNYA MİQYASINDA ÇOX GÖZƏL, İNKİŞAFDA OLAN ÖLKƏ KİMİ TANINIR"

Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək XXXI Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin iyulun 18-də rəsmi yolasalma mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

Prezident İlham Əliyevin nitqindən:

Avqustun 5-də start götürəcək bu Oyunlarda Azərbaycan Olimpiya komandası böyük heyətlə - 56 idmançı ilə iştirak edəcək. Lisenziyaların sayı isə 57-dir. Bu, keçən Yay Olimpiya Oyunlarından çoxdur. Biz London Yay Olimpiya Oyunlarında 53 idmançı ilə iştirak etmişik və bildiyiniz kimi, böyük qələbə - 10 medal qazanmışıq, onlardan 2-si qızıl medallır. Bu dəfə isə daha da böyük heyətlə iştirak edəcəyik və əlbəttə ki, yaxşı nəticələr gözləyirik. Bunu deməyə əsas var. Çünki idmançılarımız son dörd il ərzində müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında bizi sevindiriblər, ölkəmizin şöhrətini ucaldıblar və müxtəlif yarışlardan Vətənə böyük qələbələrlə qayıdıblar. Əminəm ki, Rio-de-Janeyroda da idmançılarımız vətənpərvərlik, peşəkarlıq, əzmkarlıq göstərərək ölkəmizi layəqətlə təmsil edəcəklər.

Azərbaycan idman dövlətidir. Bunu bütün dünya, idman ictimaiyyəti qəbul edir, bilir. Azərbaycanda idmanla, Olimpiya hərəkatı ilə bağlı məqsədyönlü siyasət aparılır. Məhz bu siyasət nəticəsində biz bu gün bu uğurlar haqqında danışa bilərik. Düşünülmüş siyasət, məqsədyönlü işlər idmanı Azərbaycanda, cəmiyyətdə önəmli bir ictimai amilə çevirmişdir. Bu gün idmançılara cəmiyyətdə çox böyük hörmət var. İdmançılar cəmiyyətdə layiqli yer tutublar. İdmanla məşğul olmaq istəyənlərin sayı getdikcə artır. Bunun əsas səbəbi idmançılarımızın uğurlarıdır və idmançılara göstərilən dövlət qayğısıdır. İdmançıların bütün problemləri öz həllini tapır. Artıq 20 ilə yaxındır ki, hər il ənənəvi olaraq idmançılara, idman mütəxəssislərinə, veteranlara dövlət tərəfindən mənzillər verilir. Hər il 20-30 mənzil verilir.

Bizim qabaqcıl, görkəmli idmançılarımız bütün idmançılar üçün nümunədir. Çünki onlar həm idmanda böyük uğurlar qazanıblar, həm də onların hamısı vətənpərvər insanlardır. Eyni zamanda, bizim çempionlarımız cəmiyyətdə də özlərini çox layəqətlə aparırlar. Bu, bir yeni davranış nümunəsidir. Uşaqlar, yeniyetmələr, idmanla məşğul olmaq istəyənlər də, bax, sizə - burada ayləşən idmançılara oxşamalıdırlar. Onlar görürlər ki, əgər sən idmanda böyük uğur əldə etmisənsə, cəmiyyətdə özünü layəqətlə aparırsansa, öz həyatını layəqətlə qura bilərsən. Ona görə, son illər ərzində idman bölmələrinə müşahidə olunan kütləvi axın bu səbəblərdən qaynaqlanır. Bu, məni çox sevindirir.

Ölkəmizdə bir qayda olaraq beynəlxalq idman yarışları keçirilir. Biz bunu artıq neçə ildir müşahidə edirik. İldən-ilə bu yarışların sayı da artır və səviyyəsi də yüksəlir. Bu gün dünya, Avropa çempionatlarının Azərbaycanda keçirilməsi adi hala çevrilib. Əgər əvvəlki illərdə, xüsusilə, 2000-ci illərin əvvəllərində hansısa gənclər və yaxud da yeniyetmələr arasında Avropa və ya dünya çempionatı keçirilirdisə və biz bundan fərəhlənirdiksə, bu gün dünya çempionatları, Avropa çempionatları, Olimpiya Oyunlarına təsnifat turnirləri, müxtəlif digər beynəlxalq yarışlar Azərbaycanda demək olar ki, ildə bir neçə dəfə keçirilir. Bu, beynəlxalq idman aləmi tərəfindən bizə göstərilən böyük hörmətdir.

Mən qeyd etdim ki, Bakıda artıq bir neçə mötəbər beynəlxalq yarış keçirilmişdir. Onların arasında, əlbəttə ki, Avropa Oyunları xüsusi yer tutur. Çünki bu, tarixdə ilk dəfə keçirilən Oyunlar idi. Başqa qitələrdən fərqli olaraq, nədənsə Avropada qitə oyunları heç vaxt keçirilməmişdir və Avropa Olimpiya Komitəsi həmin təşəbbüsü irəli sürəndə bu, heç də bütün Olimpiya komitələri tərəfindən birmanalı qarşılanmamışdır. Bildiyiniz kimi, bu Oyunların keçirilməsi üçün o qədər böyük maraq da müşahidə edilmirdi. Çünki birincisi, bu, yeni bir təşəbbüs idi. İkincisi, bu Oyunların keçirilməsi üçün görüləcək işlər haqqında heç kimdə təəvvür yox idi. Azərbaycan burada da liderlik keyfiyyətlərini ortaya qoydu. Biz dedik ki, buna hazırıq və hazır da biləmik. Baxmayaraq ki, Oyunların hazırlanmasına cəmi iki il vaxtımız var idi. Olimpiya Oyunlarının hazırlanmasına 7-8 il vaxt verilir. Bu dəfə isə cəmi iki il ərzində biz bu Oyunları keçirməli idik. Ancaq biz əmin idik ki, bu şərəfli işin öhdəsindən gələcəyik. Çünki Azərbaycan güclü dövlətdir. Artıq o vaxt da bizim güclü idman infrastrukturumuz var idi və təşkilatçılıq qabiliyyətimiz yüksək səviyyədə idi. Ona görə, biz öz namizədliyimizi irəli sürdük və böyük səs çoxluğu ilə Azərbaycan bu şərəfli missiyanı öz üzərinə götürdü.

Bir daha göstərdik ki, güclü dövlətin güclü insanları, güclü idmançıları var. Bu gün Azərbaycan artıq dünya miqyasında çox gözəl, inkişafda olan ölkə kimi tanınır. Bildiyiniz kimi, bu yaxınlarda - keçən ay Azərbaycanda ilk dəfə olaraq "Formula-1" yarışı keçirilmişdir. Bu yarış beynəlxalq reytinqə görə Yay Olimpiya Oyunlarının və futbol üzrə dünya çempionatının səviyyəsində olan yarışdır. Bunun təmaşaçı auditoriyası 500 milyon insandır və 500 milyon insan Bakının gözəlliyini seyr edib.

Onların böyük əksəriyyəti inkişaf etmiş ölkələrin komandalarıdır. Yəni, idmanı ümumi inkişafdan ayırmaq olmaz. Ona görə, Azərbaycan idmanının inkişafı ümumi inkişafımızın təzahürüdür. Əgər bizdə iqtisadi, maliyyə müstəqilliyi olmasaydı və biz iqtisadi cəhətdən inkişaf etməsəydik, idmanın inkişafına istədiyimiz səviyyədə vəsait qoya bilməzdik. Amma bu gün bir daha demək istəyirəm ki, Azərbaycan inamla, uğurla inkişaf edir, 2016-cı ildə də qarşıda duran bütün vəzifələr icra edilir. Azərbaycan bölgədə təhlükəsizlik, sabitlik və inkişaf məkanıdır. Əminəm ki, bizim rolumuz həm bölgədə, həm dünyada getdikcə artacaq.

Hər bir idman yarışı bir sınaqdır. İdman yarışında qələbə də olur, məğlubiyyət də. Heç kim məğlubiyyətdən sığortalanmayıb. Əsas odur, həmişə yadda saxlayasınız ki, bütün Azərbaycan xalqı sizin qələbələrinizi gözləyir, Sizə uğurlar arzulayır və əmindir ki, siz Vətəni layəqətlə təmsil edəcəksiniz, Azərbaycana böyük qələbə ilə qayıdacaqsınız.

XXXX

Sonra gənclər və idman naziri Azad Rəhimov, yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandasının məşqçisi Akif Əliyev, paralimpiyaçı İlham Zəkiyev, yunan-Roma güləşçisi Rəsul Çunayev çıxış etdilər.

Çıxışlardan sonra idmançılar Olimpiya andı içdilər.

Dövlətimizin başçısı idmançılarla xatirə şəkli çəkdirdi.

AZƏRTAC

DAXİLİ İŞLƏR NAZİRİ RAMİL USUBOV TÜRKİYƏLİ HƏMKARINA ZƏNG EDİB

Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Türkiyə Respublikasının Daxili İşlər Naziri Efkan Alaya telefonla zəng edib.

Cənab Ramil Usubov hərbi çevrilişin qəbuledilməz olduğunu bildirərək, Türkiyədəki demokratiyaya və xalq tərəfindən seçilmiş hökumətə tam dəstək verdiklərini vurğulayıb.

Türkiyənin Daxili İşlər Naziri öz növbəsində verilən dəstəyə və göstərdiyi həmrəyliyə görə general-polkovnik Ramil Usubova təşəkkürünü bildirib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidməti

Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərindən

Son vaxtlar bəzi valideynlərin diqqətsizliyi və səhlənkarlığı səbəbindən azyaşlı övladlarının nəzarətsiz olmaları nəticəsində yaşadıqları manzilərin eyvan və pancərələrindən yıxılaraq vəfat etmələri hadisələrinin sayının artması ictimaiyyəti ciddi narahat edir.

Belə ki, mayın 12-də paytaxtın Nizami rayonunda 3 yaşlı İsa Vəliyevin, mayın 28-də 3 yaşlı Jalə İbrahimovanın, iyunun 28-də Binəqədi rayonunda 2 yaşlı İmran Quliyevin, iyulun 3-də 5 yaşlı Nadir Xəlilovun və iyulun 10-da Pirallahı rayonunda 2 yaşlı Arzu Abışzadənin yaşadıqları çoxmərtəbəli manzillərin eyvan və pancərələrindən aidiyyəti rayon prokurorluğu və polis orqanları əməkdaşları tərəfindən hadisə yerlərinə və meyitlərə baxış keçirilmiş, məhkəmə-tibbi ekspertizaları təyin edilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir.

Qeyd olunan faktlar üzrə müvafiq rayon prokurorluqlarında Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işləri başlanmış və istintaq aparılır.

Ailələrin faciəsinə səbəb olan belə bədbəxt hadisələrin təkrarlanmaması üçün valideynlərə xüsusən azyaşlı övladlarına qarşı daha diqqətli və məsuliyyətli olmalarını tövsiyə edirik.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı 2016-cı ilin I yarımilində xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinin nəticələrini qənaətbaxş qiymətləndirib

İyulun 16-da Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın "2016-cı ilin I yarımilində xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinin nəticələri və qarşıda duran vəzifələr"ə həsr olunmuş iclası keçirilib. İclasda Daxili Qoşunların hərbi hissələrinin komandirləri, qərargah rəisləri və tərbiyə işləri üzrə müavinləri iştirak ediblər.

Müşavirədə giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov bildirib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yürüdülən düşünülmüş siyasət, apartılan islahatlar nəticəsində ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur, ictimai sabitlik hökm sürür. Qlobal iqtisadi böhranın dərinləşməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatının günü-gündən inkişaf etdiyini, sosialyönümlü siyasətin uğurla davam etdiyini diqqətə çatdıran Daxili Qoşunların Komandanı vurğulayıb ki, müasir dövrdə ölkəmiz neinki regionda, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanıb.

General-leytenant Ş.Məmmədov şurasının gündəliyini elan etdikdən sonra 2016-cı ilin I yarımilində xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinin nəticələri və qarşıda duran vəzifələr haqqında Daxili Qoşunlar Komandanının 1-ci müavini – Qərargah rəisi general-mayor Şirin Xəlilov məruzə ilə çıxış edib.

Bildirilib ki, 2016-cı ilin I yarımili ərzində Daxili Qoşunlar tərəfindən respublikamızda keçirilən bir çox beynəlxalq əhəmiyyətli və digər kütləvi tədbirlərdə qarşıya qoyulmuş bütün xidməti-döyüş tapşırıqları uğurla yerinə yetirilib, bir sıra nailiyyətlər qazanılıb. Qeyd edilib ki, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi mövcud nizamnamələrin tələblərinə əsasən təşkil edilib. Bununla yanaşı, qoşunlara havalə edilmiş dövlət obyektlərinin, həmçinin hərbi obyektlərin etibarlı mühafizəsi təmin olunub.

Məruzələr zamanı o da vurğulanıb ki, bu il iyun ayının 19-dan 21-dək paytaxtımızda keçirilən "Formula-1" Avropa Qran-Pri yarışları zamanı Daxili Qoşunların şəxsi heyəti daxili işlər orqanlarının əməkdaşları ilə birgə ictimai təhlükəsizliyin təmin edilməsində və ictimai sabitliyin qorunmasında fəal iştirak edərək, qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib. Hərbi qulluqçularımız üzərlərinə düşən məsuliyyət hissini dərindən dərk edərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşıb, tapşırılmış obyektlərin etibarlı mühafizəsi təmin edilib.

Daha sonra hərbi hissə komandirləri və hərbi hissə komandirlərinin müavinləri mövcud vəziyyət barədə məlumat verərək nöqsan və çatışmazlıqların mövcudluğu, yaranma səbəbləri barədə hesabat çıxışları ilə məruzə ediblər.

Müşavirəyə yekun vuran general-leytenant Ş.Məmmədov ümumilikdə, 2016-cı ilin I yarımilində xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinin nəticələrini qənaətbaxş qiymətləndirib, növbəti yarımildə qarşıda duran vəzifələrlə əlaqədar aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verib.

O, xüsusi olaraq vurğulayıb ki, Daxili Qoşunların hazırkı fəaliyyəti Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov tərəfindən layiqincə qiymətləndirilib, şəxsi heyət üzərlərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirmali, əldə edilmiş müvəffəqiyyətlərdən arxayınlaşmamalı, xalqa, dövlətə layəqətlə xidmət etməkdə, ölkədə sabitliyin və ictimai asayişin keşiyində məntinliklə dayanmalıdır.

DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

ƏMƏLİYYAT-AXTARIŞ TƏDBİRLƏRİ ZAMANI QANUNÇULUĞA VƏ TƏHLÜKƏSİZLİK QAYDALARINA CİDDİ ƏMƏL OLUNUB

Narkotik bitkilərin kultivasiyası və yabanı halda yayılmasının, eləcə də onların tranzit daşınmasının qarşısının alınmasında polis orqanlarına köməkliyin göstərilməsi məqsədilə, iyulun 21-22-də «Xaş-xaş 2016» şərti adı ilə Zaqatala və Balakən rayonlarında xüsusi əməliyyat keçirilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq göstərişinə əsasən 17074 və 17077 saylı hərbi hissələrin hərbi qulluqçuları əməliyyat-axtarış tədbirlərinə cəlb olunublar. Dövlət Sərhəd Xidmətinin Zaqatala rayonunun sərhəd zastavasının bir qrup şəxsi heyəti də keçirilən tədbirlərdə iştirak edib.

Əməliyyat öncəsi şəxsi heyətlə əməliyyatın məhiyyəti, əməliyyat-axtarış tədbirlərində dözümlülük, məsuliyyət dayanıqlarının tərbiyə edilməsi və qanunçuluğa ciddi əməl olunması istiqamətində söhbətlər aparılıb. Hər bir hərbi qulluqçunun üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsi üçün müvafiq tövsiyələr verilib.

Bununla yanaşı, 17077 saylı hərbi hissənin uçuş heyəti, paraşüt-desant və axtarış-xilasetmə qrupu, habelə 17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsindən təyin edilmiş axtarma qrupu və ərazi polis orqanlarının rəhbərləri ilə birlikdə helikopter vasitəsi ilə əraziyə baxış keçirilərkən, aşkar olunmuş narkotik tərkibli bitkilərin yerləşmə koordinatları müayyən edilərək ərazilərdə fəaliyyət göstərən əməliyyat-axtarış qruplarına məlumat verilib. Həmçinin, əməliyyatlar zamanı şəxsi heyət tərəfindən qanunçuluğa və təhlükəsizlik qaydalarına ciddi riayət edilib, intizam pozuntusuna yol verilməməsi diqqət mərkəzində saxlanılıb.

DAXİLİ QOŞUNLARIN HƏRBİ QOSPİTALI ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞININ KEŞİYİNDƏDİR

Daxili Qoşunların 12576 saylı hərbi hissəsi artıq 23 ildir ki, şəxsi heyətin sağlamlığının keşiyində durur. Respublikamızda qızğın döyüşlərin getdiyi bir dönəmdə kiçik hakim kontingenti ilə fəaliyyətə başlayan qospital, tədrican ştat strukturu genişləndirilərək, müasir standartlara cavab verən tibb müəssisəsinə çevrilib. Hərbi qospital öz təyinatına uyğun olaraq, Daxili Qoşunların hərbi qulluqçularının və onların ailə üzvlərinin, təqaüdçülərin, sıralarımıza yeni qəbul olunmuş əsgərlərin, o cümlədən, qoşunlarda xidmət üçün müraciət edən şəxslərin müayinə və müalicəsi ilə məşğul olur.

Hərbi qospitalın rəisi - hərbi hissə komandiri tibb xidməti polkovnik-leytenantı Şəmsəddin Heydərovla söhbət zamanı xəstələrin sağlamlığına qovuşması üçün hər cür zəruri şəraitin yaradıldığını, qospitalın müasir tibbi avadanlıqlarla təchiz olunduğunu bildirdi.

Qospitalın tibb personalının ixtisas və döyüş hazırlığı ilə yanaşı, onların mənəvi-psixoloji durumuna da diqqət yetirilməkdədir. Bu barədə daha ətraflı məlumat verən hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor İlqar Həmidov qospitalda tərbiyə işinin təşkili ilə əlaqədar bir sıra məqamlara aydınlıq gətirdi: "Tərbiyə işi bir qayda olaraq, Daxili Qoşunlar Komandanı tərəfindən imzalanmış müvafiq direktivin tələblərinə əsasən həyata keçirilməkdədir. Nəinki qospitalın tibbi personalı ilə, eyni zamanda hərbi hissələrdən daxil olmuş hərbi qulluqçularla fərdi söhbətlər aparılır. Müalicəyə başlamazdan əvvəl mütləq qaydada onların mənəvi-psixoloji vəziyyəti öyrənilir. Eyni zamanda, şöbələr üzrə həftənin 1-ci və 4-cü günləri xəstələrlə tərbiyə saatı məşğələləri keçirilir".

Hazırda ölkəmizdə fəaliyyət göstərən dövlət əhəmiyyətli tibb ocaqlarından heçdə geri qalmayan hərbi qospitalımızda Qəbul, Diaqnostika, Stasionar əməliyyat bloku və Reabilitasiya şöbələri fəaliyyət göstərir.

Funksional-diaqnostika şöbəsinin rəisi vəzifəsini icra edən tibb xidməti mayoru Nəzir Abdullayev bütün digər qabaqcıl tibb müəssisələrində olduğu kimi burada da həm laborator, həm də instrumental müayinələrin aparıldığını diqqətə çatdırdı. Bildirdi ki, hekimlər bu müayinələri ən son, müasir cihazlarda, insan müdaxiləsi olmadan həyata keçirirlər. Laborator olaraq ümumi kliniki müayinələr, instrumental müayinələrdən-rəqəmsal rentgen, EKQ, EXO-kardioqrafiya, FQDS, bronxoskopiya, USM və rəngli doppler aparılır, həmçinin fiziki yük altında ürəyin fəaliyyəti yoxlanılır. Ultrasəs müayinəsində aşağı ətraf damarlarının rəngli doppleri, qalxanvari vəz, abdominal və kiçik çanaq orqanlarının dəqiq müayinəsi ən müasir - 2015-ci il istehsalı olan "esaote" cihazı vasitəsilə həyata keçirilir.

Şöbədə qurəşdırılmış çox geniş müayinə imkanlarına malik rəqəmsal Rentgen cihazı vasitəsilə orqanizmin sümük, ağciyər və hazım sisteminin geniş sferada rentgenskopiya və rentgenoqrafiya müayinələrini müxtəlif müstəvilərdə və proyeksiyalarda çəkmək mümkündür.

Onu da vurğulamaq lazımdır ki, Daxili Qoşunların Komandanının göstərişə və tövsiyələrinə uyğun olaraq, qospitalın həm həkim, həm də orta tibb personalının nəzəri biliklərinin artırılması məqsədilə onların həm ölkədaxili səhiyyə ocaqların - da, həm də Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasında müvafiq kurslara göndərilməsi həyata keçirilir.

Bundan əlavə, qospitalda tibb personalının ixtisas hazırlığının təkmilləşdirilməsi, tibb elminin yeni nailiyyətləri və elmi araşdırmaların öyrənilməsi məqsədilə tədbirlər planı hazırlanıb. Plana əsasən, həftədə bir dəfə seminar və konfranslar, o cümlədən, müxtəlif nozoloji xəstəliklər üzrə "şərti xəstə" götürməklə praktiki məşğələlər və konsiliumlar keçirilir.

Göründüyü kimi, müasir tibbi avadanlıqlarla təchiz edilmiş hərbi qospitalın şəxsi heyəti hərbi qulluqçuların və onların ailə üzvlərinin sağlamlığının keşiyində durar - aq, onlara göstərilən etimadı doğruldur.

leytenant N.Ağayeva

XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARINA GÖRƏ FƏRQLƏNMİŞ HƏRBİ QULLUQÇULAR MÜKAFATLANDIRILIBLAR

Daxili Qoşunlar üzrə keçirilən tədbirlərdə aidiyyəti vəzifəli şəxslərə qarşıda duran tapşırıqların tam və keyfiyyətlə yerinə yetirilməsi məqsədilə Daxil İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının tapşırıq və tövsiyələri çatdırılıb

İyulun 8-də Daxili Qoşunların Ali Hərbi Məktəbində və hərbi hissələrdə 2016-cı ilin I yarımili üzrə xidməti-döyüş fəaliyyətinə yekun vurularaq, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Tədbirlərdə Daxili Qoşunların Baş İdarəsinin yüksək rütbəli vəzifəli şəxsləri iştirak edib, xidməti-döyüş fəaliyyətinin yekunları və hərbi intizamın vəziyyəti haqqında məruzələr dinlənilib.

Qeyd edilib ki, cari ilin I yarımili ərzində hərbi hissələrin əsas fəaliyyəti Daxili İşlər Nazirinin və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının əmrlərinin tələblərinin icrasına yönəlib. Bu məqsədlə, tədris dövrləri üçün məşğələ planları hazırlanıb, maddi-tədris bazaları yenilənib, təlim şəhərcikləri və atış sahələrində müvafiq işlər görülüb. Əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planlarına əsasən, tapşırıqların vaxtında və müvəffəqiyyətlə yerinə yetirilməsi diqqət mərkəzində saxlanılıb.

Məruzələrdə o da vurğulanıb ki, xidmət və bölmələrdə təşkilatçılıq, idarəçilik funksiyalarının təkmilləşdirilməsi davam etdirilib, hərbi intizamın möhkəmləndirilməsi üçün ciddi tədbirlər görülüb.

Daha sonra bildirilib ki, cari ilin II yarımilində də qarşıda duran əsas vəzifələr döyüş hazırlığını daima qoruyub saxlamaq, xidməti-döyüş fəaliyyətini müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edərək, qarşıya çıxa biləcək hər hansı bir tapşırığın yerinə yetirilməsinə hazır olmaq və şəxsi heyətin peşə vərdişlərinin artırılmasıdır.

Ali Hərbi Məktəbdə və hərbi hissələrdə təlim-tədris prosesinin inkişafında, maddi-tədris bazasının yaradılması və təkmilləşdirilməsində, hərbi qayda-qanunun möhkəmləndirilməsində üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirdiklərinə və fərqləndiklərinə görə bir qrup zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına mükafatlar təqdim olunub.

Bundan əlavə, xidməti vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan və şəxsi nizam-intizamı ilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları "Təşəkkür", "Qısamüddətli məzuniyyət", "Hərbi qulluqçunun yaşadığı yerə onun hərbi xidmət borcunun nümunəvi yerinə yetirilməsi və aldığı mükafatlar haqqında məlumat vermək"lə mükafatlandırılıblar.

Tədbirin sonunda Daxili Qoşunların Baş İdarəsini təmsil edən nümayəndələr mükafatlandırılan hərbi qulluqçuları təbrik edərək, I yarımil ərzində qazanılan nailiyyətlərin növbəti tədris ilində də davam etdirilməsi üçün şəxsi heyətin əlindən gələni esirgəməyəcəklərinə, nizam-intizamı qoruyub saxlayacaqlarına əminliklərini ifadə ediblər.

Ələvə olaraq, qarşıda duran vəzifələrin tam və keyfiyyətlə yerinə yetirilməsi məqsədilə Daxil İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının tapşırıq və tövsiyələri çatdırılıb.

leytenant X.Tağıyeva

İyulun 29-da Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin yaranmasının 23-cü ildönümü tamam olub. Bu münasibətlə tantənəli mərasim keçirilib.

Tədbir xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Dövlət himni ifa olunub.

Sonra şəxsi heyətə təbriklərini çatdırmaq üçün söz hissə komandiri polkovnik Etibar İlyasova verilib. O, hərbi hissənin yaranma tarixi, ötən müddət ərzində keçdiyi inkişaf yolu, qazanılmış nailiyyətlər barədə ətraflı məlumat verib.

Daha sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun şəxsi heyətə ünvanladığı təbrik məktubu oxunub.

Məktubda yarandığı gündən etibarən Vətənə sədaqətlə xidmət edən və fədakarlıq nümunəsi göstərən şəxsi heyətin doğma torpaqlarımızın toxunulmazlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla iştirak etdiyi, ictimai asayişin qorunması üzrə qarşıya qoyulmuş tapşırıqların layiqincə yerinə yetirilməsində zəngin döyüş və xidməti təcrübə toplaması qeyd olunub.

Həmçinin, son vaxtlar hərbi hissədə aparılan abadlıq-quruculuq işləri nəticəsində maddi-tədris bazasının möhkəmləndirildiyi, hərbi qulluqçuların peşə hazırlığının təkmilləşdirilməsi, sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində çoxsahəli işlərin görüldüyü vurğulanıb.

HƏRBİ HİSSƏNİN İLDÖNÜMÜ QEYD OLUNUB

Bu münasibətlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının təbrik məktubu şəxsi heyətə çatdırılıb

Təbrikdə hərbi hissənin şəxsi heyətinin Ümummilli Liderimiz, ordumuzun memarı Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı hər zaman doğruldacağına, qoşunların qəhrəmanlıq əənənələrini davam etdirərək bundan sonra da layaqətli xidmət nümunəsi göstərəcəklərinə əminlik ifadə olunub.

Mərasimdə vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirən bir qrup hərbi qulluqçuya mükafatlar təqdim edilib.

Məlumat üçün bildirək ki, hərbi hissə xidməti-döyüş fəaliyyətinin yekunlarına əsasən, 2016-cı ilin I yarımilini müsbət nəticələrlə başa vurub. Bu münasibətlə hərbi hissə komandanlığını və şəxsi heyəti təbrik edir, qazanılmış uğurların davamlı olmasını arzulayırıq.

leytenant X.Tağıyeva

VƏZİFƏ BORCLARININ İCRASINA VİCDANLA YANAŞILIR



12318 saylı hərbi hissənin komendant bölüyü qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlir.

Bölük komandiri leytenant Ramil Əsgərov qeyd etdi ki, tabeçiliyində olan hər bir hərbi qulluqçu vəzifə borclarının icrasına vicdanla yanaşır, verilmiş tapşırıqları tələb olunan səviyyədə yerinə yetirir. O, bildirdi ki, şəxsi heyətin döyüş hazırlığının daha da yüksəldilməsi istiqamətində məşğələlərə önəm verilməkdədir. Bu baxımdan şəxsi heyət mütəmadi olaraq, həm nəzəri, həm də praktiki təlimlərə cəlb olunur ki, bu da onlarda peşə vərdişlərinin təkmilləşdirilməsində əhəmiyyətli rol oynayır.

Bölük komandiri xidmətə cəlb olunan hərbi qulluqçularda mənəvi-psixoloji durumun yüksək səviyyədə saxlanılmasının da başlıca amillərdən olduğunu nəzərə çatdırdı. O, bu işdə bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Həmid Rəhimovun və taqım komandiri leytenant Bilal Məmmədovun fəaliyyətini qeyd etdi.

Leytenant H.Rəhimov diqqətə çatdırdı ki, qarovul xidmətinin xüsusiyyətləri nəzərə alınmaqla mənəvi-psixoloji cəhətdən daha hərbi qulluqçulara məsləhət görülməsinə baxmayaraq, onlarla daima tərbiyəvi mövzularda söhbətlər aparılır.

Qarovul rəisinin köməkçisi kiçik çavuş Taleh İbrahimli, əsgərlərdən Fərid Əliyev, Etibar Sultanov, Şahin Qəniyev və Nəmət Şirinov döyüş xidmətinin keyfiyyətlə yerinə yetirilməsində əllərindən gələni esirgəmirlər.

baş leytenant T.Əlizadə

NÖVBƏTİ TƏLİMLƏR UĞURLA NƏTİCƏLƏNİB

İyulun 13-14-də 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin şəxsi heyətinin peşə vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə növbəti təlimlər keçirilib. Təlimlərdə DQBİ-nin Qərargahının Əməliyyat və Döyüş Hazırlığı İdarəsinin Döyüş hazırlığı şöbəsinin zabitləri və 17077 saylı hərbi hissənin helikopter ekipajı iştirak edib.

Təlimdə «Helikopterdən tullanmaların yerüstü məşqləri» və «Helikopterdən (avtomobildən) həmlə-desant üsulu ilə enmələr» mövzularına xüsusi diqqət yetirilib. Qeyd etmək lazımdır ki, bu mövzular üzrə təlimin keçirilməsində əsas məqsəd şəxsi heyətin təyinatı üzrə istifadəsi zamanı istənilən bölgeyə və relyef şəraitinə çatdırılmasının prioritet amil olması nəzərə alınmaqla, məşq etdirilməsi və hazırlığının yoxlanılması olub.

Təlimlər zamanı, həmçinin, helikopter bortundan iplə və kəndirlə enmələr, eləcə də tullanmalar praktiki olaraq yerinə yetirilib.

Eyni zamanda, hərbi hissənin xüsusi təyinatlı dəstəsində döyüş hazırlığının və döyüş təliminin vəziyyəti yoxlanılıb, şəxsi heyətdən atəş və fiziki hazırlıq üzrə məqbullar qəbul edilərək qiymətləndirilib.

Ümumilikdə, şəxsi heyətin hazırlığı qənaətbəxş səviyyədə olub. Təbii ki, təlimlərdə tələb olunan nəticənin əldə olunması təlimçədərki dövrdə şəxsi heyətlə keçirilmiş məşğələlərin tam keyfiyyətlə yerinə yetirilməsindən xəbər verir. Necə deyərlər, Daxili Qoşunlarda xidmət edən hər bir hərbi qulluqçu, xüsusilə də komandir heyəti vəzifə borclarının icrasına vicdanla yanaşır.

leytenant N.Ağayeva

İMTAHANLAR YÜKSƏK SƏVİYYƏDƏ KEÇİRİLİB

DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbi zabit kadrları hazırlayan təhsil müəssisəsidir. Bu baxımdan kursantlara ixtisaslı bilik, bacarıq və vərdişlərin aşılanması və peşəkar zabitlərin hazırlanması məqsədilə tədris prosesinin keyfiyyətli təşkili qarşıya qoyulmuş əsas tapşırıqlardandır.

Bu haqda məlumat verən məktəbin Tədris şöbəsinin rəisi polkovnik-leytenant Kənan Yüzbaşıyev qeyd etdi ki, tədris fəaliyyəti Ali Hərbi Məktəbin fəaliyyətinin əsas hissələrindən biridir və o bütün növ tədris məşğələlərinin planlaşdırılıb keçirilməsini, kursantlar tərəfindən tədris materiallarının dərindən mənimsənilməsini, semestr qiymətləndirilməsini əhatə edir. Semestr ərzində keçirilən məşğələlərin yekununda isə kursantlardan imtahanlar qəbul olunur.

Ali Hərbi Məktəbdə olarkən, məktəbin zabit hazırlayan tədris taborunun I kursunun kursantları ilə "Azərbaycan tarixi" fənnindən keçirilən imtahanlarda iştirak etdim.

İmtahanın baş rəhbəri, Hərbi və sosial-iqtisadi fənlər kafedrasının rəisi vəzifələrini icra edən polkovnik-leytenant Aftandil Əmiraslanov bildirdi ki, kursantlar tam tərkibdə imtahanlara cəlb olunublar. Burada imtahanın baş rəhbərindən əlavə, sinif üzrə nəzarətçi müəllim və imtahan sənədlərinə cavabdeh şəxs də iştirak edir. Test üsulu ilə aparılan imtahanlarda kursantlara dörd variantda olmaqla, ümumilikdə, 25 sual təqdim olunur. Sualların cavablandırılmasına 50 dəqiqə vaxt ayrılır. Hər bir sual 2 balla qiymətləndirilir.

İmtahanın baş rəhbəri onu da söylədi ki, kursantlar sualları cavablandırıqdan sonra imtahan vərəqələri cavabdeh şəxs - leytenant Rauf Mehdiyev tərəfindən möhürlənmiş qovluğa yığılır və aidiyyəti üzrə fənn müəlliminə təhvil verilir. Nəticələr xüsusi optik oxuyucu vasitəsilə yoxlanılır, imtahandan sonra təxminən 2 saat ərzində imza əsasında kursantlara elan edilir. Ümumilikdə, imtahanlar arasında 1 gün istirahət verilir.

Qeyd edim ki, məktəbin zabit hazırlayan tədris taborunun II kursunun kursantları artıq bütün imtahanları yekunlaşdırıblar. Yekuna əsasən, kursant Emil Abdullayev yüksək nəticələr əldə edərək, birinciliyini qoruyub saxlayıb. Kursant Cavid Məhərrəmzadə və kursant Xəyal Cəbrayılov isə müvafiq olaraq 2-ci, 3-cü yerləri tutublar. Hazırda onlar nəzəri biliklərin möhkəmləndirilməsi və praktiki vərdişlərin qazanılması məqsədilə Daxili Qoşunların hərbi hissələrində qoşun təcrübəsinə cəlb olunublar. Bu barədə qəzetimizin növbəti sayında məlumat vəreməyik.

leytenant X.Tağıyeva

Ana dili hər bir xalqın milli sərvəti, həmin xalqın varlığının təsdiqidir. Milletin, xalqın varlığı onun dili ilə bağlıdır. Azərbaycan dili də Azərbaycan xalqının milli sərvətidir və xalqımız, millətimiz tarix durduqca, bu sərvətin qayğısına qalmalı və dilimizi gələcək nəsillərə ötürməlidir. Ana dilinin qorunması, təbliğ olunması və inkişaf etdirilməsi Azərbaycanda da diqqət yetirilən mühüm məsələlərdəndir.

1 AVQUST - AZƏRBAYCAN ƏLİFBASI VƏ AZƏRBAYCAN DİLİ GÜNÜ

Azərbaycan dili hələ 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət dili kimi hüquqi aktlarda təsbit olundu. Bütün rəsmi sənədlər ana dilində tərtib edilirdi. 1920-ci ildə Demokratik Respublikanın süqutundan sonra Sovet hakimiyyəti ana dili məsələsini beynəlmiləlçilik pərdəsi arxasında ikinci plana keçirməyə başlayıb.

1969-cu ildə Azərbaycana rəhbər təyin edilən Ümummilli Lider Heydər Əliyev Sovet rejiminin yaratdığı məhdudiyyətlərə və çərçivələrə baxmayaraq, Azərbaycan dilinin qorunmasına, rəsmi dövlət dilinə çevrilməsinə, zənginləşməsinə, nüfuz qazanmasına böyük əhəmiyyət verirdi. Bu siyasətin mantiqi nəticəsi 1978-ci ildə Azərbaycan Konstitusiyasında dövlət dilinin Azərbaycan dili olması haqqında maddənin yer alması oldu.

"Dil ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla bağlıdır, bunlarsız isə vətənpərvərlik formulu yoxdur" - söyləyən Ulu Öndər yürütdüyü dil siyasətində gənc nəsildə bu cür nəcib hisslərin tərbiyə edilməsinə çalışırdı.

Müstəqilliyin ilk illərində Azərbaycan dilinə müxtəlif yanaşmalar meydana çıxmışdı. 1993-cü ilin iyununda xalqın tələbi ilə ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev milli-etnik birliyin möhkəmləndirilməsinə doğru atdığı addımlardan biri kimi dövlət dilinin "Azərbaycan dili" adlandırılması təklifini irəli sürdü. Xalq da bu təklifi dəstəklədi və 1995-ci il 12 noyabr referendumu ilə qəbul olunan, Ummumili Liderin müellifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Həmçinin, Konstitusiyamızın 45-ci maddəsi ilə Azərbaycanda yaşayan bütün etnosların nümayəndələrinin ana dilindən istifadə hüququ da təsdiq olunub.

2001-ci ilin 18 iyununda Ümummilli Lider "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı. Bu tarixi sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynadı. 2001-ci il avqustun 9-da Ulu Öndər "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərman imzaladı. Bu fərmanla avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan dili Günü elan edilmişdir.

2003-cü il yanvar ayının 2-də isə Ulu Öndərin Fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Sənəddə eksini tapan müddəalar Azərbaycanda dövlət dilinin qorunmasını və inkişafını təmin etməyə qadir çox mükəmməl bir hüquqi sistemin mövcud olduğunu təsdiqləyirdi. Bu sənəd Ummumilli Lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir.

Ana dilinin qorunması və inkişafı siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Dövlət başçısının da qeyd etdiyi kimi, milli xüsusiyyətlərimizin əsaslanmasında ana dili və ədəbiyyatımız başlıca rola malikdir: "Bizi millət kimi qoruyub saxlayan mahz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir".

Prezident İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamlarına uyğun olaraq, əvvəllər kiril əlifbası ilə çap edilən yerli və xarici müəlliflərə məxsus müxtəlif elmi, bədii kitabların çoxu latın qrafikası ilə yenidən nəşr olundu. 2012-ci ildə isə Prezident İlham Əliyev "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Sərəncam imzalayıb. Bu sənəd dəyişən qlobal mühitin təsirlərinə baxmayaraq, Azərbaycan dilinin bundan sonra da yaşadılmasına, zənginləşdirilməsinə və geniş istifadəsinə töhfə verəcək.

"Əsgər"

Zabitlərin metodiki hazırlığı

İNFORMASİYA MÜHARİBƏSİ:

psixoloji təsir və ona qarşı mübarizə vasitələri

İstər beynəlxalq səviyyədə öz mövqelərini getdikcə itirən, istərsə də daxildə sosial partlayış, aclıq, səfalət, işsizlik, başlıcası isə ümidsizlik mühitində yaşayan Ermənistanın cinayətkar qruplaşmadan ibarət hərbi-siyasi rəhbərliyi qeyd olunan şəraitdən vətəndaşların fikrini yayındırmaq üçün son aylar ərzində cəbhə bölgəsində ardıcıl təxribatlara yol verir, dinc əhalimizin yaşayış məntəqələrini atəşə tutur, hətta qadağan olunmuş kimyəvi başlıqlı artilleriya mərmilərindən istifadə edir. Baş verən düşmən təxribatlarına qarşı Azərbaycan Ordusunun layiqli cavabı bizi ruhlandırmaqda bərabər, bu təxribatlara qarşı daim ayıq-sayıq olmağımızı, xüsusilə də hadisələrin sürətli inkişafı zamanı yayılan informasiyalara çevik reaksiya vermeyimizi tələb edir. Bu baxımdan müasir dövrdəki hərbi qarşıdurmaların təkrib hissəsi kimi informasiya təsirinin əhəmiyyəti, onun mahiyyəti və strukturu, informasiya təhlükəsizliyinin əsas vəzifələri, psixoloji əməliyyatların rolu və növləri, şəxsi heyətin müdafiəsi üsulları haqqında hər bir zabit hazırlıqlı olmalı, zərurət yarandığı anda proseslərə müdaxilə etməyi bacarmalıdır.

(əvvəli ötən sayımızda)

İnformasiya müharibəsi, informasiya üstünlüyünün əldə edilməsi məqsədilə, özünün informasiyaya əsaslanan proseslərinin, şəxsi informasiya sistemlərinin və kompyuter şəbəkələrinin informasiya təhlükəsizliyini təmin etmək şərti ilə, düşmənin informasiyaya əsaslanan proseslərə, informasiya sistemləri və kompyuter şəbəkələrinə təsir etməklə informasiya üstünlüyünün əldə edilməsidir.

İnformasiya müharibəsinin iki istiqamətini fərqləndirmək lazımdır: texniki - məlumat və psixoloji - məlumat istiqamətli.

İnformasiya-texniki təsir - müxtəlif növ informasiya sistemlərinə, telekommunikasiya vasitələrinə, kompyuter şəbəkələrinə qarşı radioelektron mübarizə, həmçinin radioelektron kəşfiyyat, habelə müharibələri və s. nəzərdə tutulur. Texniki obyektlər kimi ilk növbədə hərbi əlaqələndirmə və idarəetmə sistemləri, paralel olaraq düşmən dövlətin maliyyə-iqtisadi fəaliyyətli, dövlət orqanlarının rəsmi səhifələri və s. hədəfə alına bilər.

İnformasiya-psixoloji təsir - siyasi elita və əhalinin psixoloji durumuna, davranışına, cəmiyyətin informasiya-psixoloji mühitinin inkişafına, funksionallığına birbaşa təsir göstərən xüsusi informasiyanın məqsədəuyğun istehsalı və yayılmasıdır. Təbliğat, "beyinlərin yuyulması" və psixoloji təsir informasiya-psixoloji təsirin növləridir. İnformasiya-psixoloji təsirin effektliyi ilk növbədə məqsəd və hədəflərin düzgün təyinindən, ona müvafiq sərmərəli üsulun seçilməsindən asılıdır. İnformasiya-psixoloji müharibə zamanı birinci yerdə ictimai fikrin formalaşdırılması prosesi dayanır.

İnformasiya müharibəsi zamanı psixoloji müharibə vasitələrindən istifadə, bir tərəfdən, mövcud informasiya sistemini dağıtmağa, digər tərəfdən isə onu başqa informasiya-kommunikasiya sistemi ilə əvəz etməyə imkan verir. Bununla da cəmiyyatin maraqları qarşı tərəfin maraqlarına tabe etdirilir. Bir çox insanlar hələ də müasir informasiya-kommunikasiya texnologiyaları vasitələrindən gələn, əsasən də siyasi məqsədlərə xidmət edən gizli informasiya-psixoloji təhlükələri tam anlamır, onlara laqeyd yanaşırlar.

20-ci əsrin ikinci yarısından bu günə qədər baş verən qoşqlıqlıqlərin araşdırılması göstərir ki, münaqişələrin həllində silahlı qüvvənin və informasiya-psixoloji təsirin tətbiqinə meyillər artmışdır. İnsana elə gəlir ki, o istədiyi şey haqqında düşünür və düşündüyü kimi də hərəkət edir. Əslində isə onun həyatı daima qəbul edilən daxili və xarici informasiyanın təsiri altındadır. Mahz bu mənada yeni və daha müasir silah növündən - informasiyadan söhbət gedir. Hər şeydən əvvəl, digər sosial subyektlər tərəfindən əvvəldən planlaşdırılmış fəaliyyətin insan tərəfindən özünə lazım olan fəaliyyət kimi həyata keçirilməsinə səbəb olan xüsusi məlumatlar seçilməlidir. Adətən belə vəziyyətdə insan bilavasitə real situasiyadan deyil, ictimai mühitin təsiri və şəxsi təcrübəsinə əsaslanan, şüuraltında ona təlqin olunmuş amillərin təsiri ilə hərəkət edir. Bu "sistemi" dərindən bilməklə insanların növbəti hərəkətlərini proqnozlaşdırmaq və bələdlərə də arzuolunan davranışın meydana gəlməsinə nail olmaq olar. İnsanın "arzuolunan" davranışının reallaşması üçün yaradılan proqram dərhal, birbaşa, məqsədini aydın ifadə etməklə deyil, tədrican və sistemli olaraq, müəyyən vaxtda və müəyyən yerdə onun psixologiyasına, ilk növbədə, qərgin, emosional və zəif-ləmiş psixoloji vəziyyətində tətbiq olunur.

İctimai informasiya mühitinə həm xarici, həm də daxili təhlükə yaradan amillərin mövcudluğunu nəzərə almaq lazımdır. Xarici təhlükələrə bəzi dövlətlərin dünya informasiya mühitində üstünlüyü ələ almaq, sərhədyanı dövlətlərin informasiya mühitinə daxiloluma cəhdələrini və öz dini, ideoloji məqsədlərini yaymasını, Azərbaycan dilinin, ənənələrinin, milli-mənəvi sərvətlərinin aləyhinə yönəlmiş işlərin aparılmasını hesab etmək olar. Daxili informasiya təhlükəsizliyinə isə vətandaş cəmiyyətində və hüquqi dövlətdə yaşamanın tarixi, siyasi və ictimai ənənələrinin yeni yaranmasını, vətəndaşların informasiya mühitində qarşılaşdığı çətinliklər, cəmiyyətdə mövcud olmuş mənəvi-əxlaqi dəyərlərə qarşı cəhdləri və s. aid etmək olar.

İnformasiya təhlükəsizliyinin təmin edilməsinin əsas vəzifələrinə aşağıdakıları aid etmək məqsədəuyğundur:

- *İnformasiya sahəsində cəmiyyətin və dövlətin həyati vacib maraqlarının müəyyənləşdirilməsi və proqnozlaşdırılması, informasiya təhlükəsizliyinə təhdidlərin aşkar edilməsi, qiymətləndirilməsi;*
- *İnformasiya təhlükəsizliyinin təmin olunması dövlət siyasətinin əsas istiqamətlərinin hazırlanması, bu siyasətin və mexanizmlərin həyata keçirilməsi üçün kompleks tədbirlərin işlənməsi;*
- *Normativ-hüquqi bazanın təkmilləşdirilməsi;*
- *İnformasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində, dövlət hakimiyyəti orqanlarının, mülkiyyət formalarından asılı olmayaraq, müəssisə, idarə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi;*
- *Bu təhlükələrin nəticələrinin aradan qaldırılması və informasiya təhlükəsizliyinə təhdidlərin neytralaşdırılması və qarşısının alınma - sının forma, metod və vasitələrin təkmilləşdirilməsi, bu təzahürlərin nəticələrinin aradan qaldırılması;*
- *Qlobal informasiya şəbək